# OT KÖKÜ ÜSTÜNDƏ BİTƏNDƏ...

Dəyərli dostum Şəmsəddin müəllimin nəsil şəcərəsi, boya-başa çatdığı yurd yerləri, xüsusən Lənkəranın qədim kəndlərindən olan doğma Separadi, onun təbii gözəlliyi , nadir insanları bu kəndin zəngin maddi və mənəvi gerçəkliklərindən xəbər verir. Belə ki, bir qədər uzaqdan sıralanan Talış dağlarının məğrur görüntüsü, yaxınlıqdan axan dağ çayının həzin şırıltısı, bir əmək nəğməsi kimi ev-ev dalğalanan meyvə bağları, gül-çiçək sərgisi, çay və sitrus plantasiyaları bu kəndə Tanrının və insan oğlunun qüdrətli əli ilə gözəllik sığalı çəkibdir. Bütün bunlar haqqında, eləcə də kəndin qədim tarixi, inkişaf mərhələləri barədə yaxın dostum, yazıçı publisist Hacı Hafiz Mirzənin “Separadi” kitabında əhatəli məlumatlarla tanış olmaq mümkündür. Bircə onu əlavə etmək istəyirdim ki, Separadi də daxil olmaqla əslində Lənkəran bütövlükdə ətirli güllər diyarıdır. Hansı evə, hansı məhəlləyə, obaya yaxınlaşsan, qızıl güllərin, nərgiz və qərənfillərin, adlarını dəqiq bilmədiyim növ-növ ətir saçan çiçəklərin əhatəsində, gözəlliyin, harmoniyanın xoş ahəngində yaşayırsan.Görünür, elə buna görədir ki, Separadi ilə qonşu olan Boladi kəndində dünyaya göz açan gözəllik nəğməkarı, sevimli Şəkər Aslan zamanında bu gözəllikdən vəcdə, ilhama gələrək yazırdı:

Lənkəran güllərinin
Dünyada şöhrəti var
Gül içində yaşayan
Gül kimi gözəl olur.

Bu misralarda, Şəkər Aslan poeziyasının gerçəklərindən xəbər verən bədii təqdimatda qədim yurd yeri olan Separadi kəndinin də özünəməxsus yeri vardır. Lakin məqsədim heç də Separadi kəndi, onun təbii gözəllikləri barədə danışmaq deyildir.Məqsədim şairin dörd misralıq şeirində deyildiyi kimi, bu gözəllik diyarında yaşayan gözəl insanlar haqqında danışmaqdır. Bu haqda daha çox məlumatlıyam. Belə ki, Lənkəranın ən ucqar kəndində işlədiyim dövrdə düz 12 il həmin kəndin içindən keçərək yol etmiş, çox zaman kənd adamlarının köməyindən, məsləhətlərindən istifadə etmişəm. Bu kənddən neçə-neçə tanınmış alimin, şairin, yazıçının, iş adamının çıxdığını bilməyən varmı? Təkcə bütün Azərbaycanın tanıdığı, sevə-sevə mütaliə etdiyi, oxuduğu şair-dramaturq Vaqif Hüseynovu göstərmək kifayətdir. Uzun illər folklorşünas alim kimi tələbələrimi Lənkəran, Astara və Lerikin müxtəlif kəndlərinə, yurd yerlərinə folklor təcrübəsinə aparmış el deyimlərini toplamışıq. Tələbələr də təsdiq edər ki, heç bir yerdə Lənkəranın Separadi kəndində olduğu kimi işimiz rahat getməmişdir. Kəndin bu başından o başına çıxmamış dəftərlər, vərəqlər sinədəftər babaların, nənələrin söz naxışları ilə dolurdu. Bu insanların zəngin mənəvi dünyası, folklor nümunələri, etnoqrafiyamız barədə bilgiləri, məlumatları fərqli şəkildə düşünməyə, xoş sözlər söyləməyə əsas verir. Kənddin mahnı və rəqs ansamblları, mədəniyyət adamları barədə də çox danışmaq olar. Təkcə bu gün hamının sevə-sevə qarşıladığı “Nənələr” ansamblını Separadi və qonşu Şağlaser kəndinin yetişdirdiyini, oradan Azərbaycan, eləcə də dünya mədəniyyətinə töhfə verdiyini iftixarla söyləmək olar.Kəndin nadir sənət-peşə adamları-duluşçular, boyaqçılar, dəmirçilər haqqında da ətraflı danışmaq olar. Ən əsası odur ki, babaların qoyduğu əmək ənənələri bu kənddə yaşadılır, davam və inkişaf etdirilir.Kəndin ən böyük sərvəti isə istinasız olaraq onun nadir ziyalıları, kəndi hər yerdə şərəflə təmsil edən işıqlı insanlarıdır. Belə köklü-köməcli ünvanlardan biri də yaxın nəsil şəcərəsi bir neçə yüz il əvvəl Cənubi Azərbaycandan gələrək Lənkəranın Separadi kəndində məskunlaşan Canı kişi və onun törəmələridir. Canı kişinin Qurban adlanan böyük oğlunun Canəli, Eynəli, Şahəli (Şalı) və Xudaqulu adında dörd oğlundan hər biri haqqında saatlarla danışmaq olar. Dəyərli dostum, düz, təmiz insan kimi tanıdığım Şəmsəddin Canıyev işıqlı ziyalı, el ağsaqqalı Şalı müəllimin altı övladından ikincisidir.Ədalət naminə onu da bildirirəm ki, Separadi kəndi və Canıyevlər barədə məlumatları daha çox Şəmsəddin müəllimin hər yerdə böyük hörmətlə Şalı müəllim,”-deyə ehtiramla qarşılanan atası Şalı Qurban oğlu Canıyev barədə:

*Dəyərli dostum, şair, publisist Kərbəlayi Şəmsəddin Şalı oğlu Canıyevin (Şəmsəddin Xocanın) 70 illik yubileyi münasibətilə*



Səndə dözüm, dəyanət,
Səndə bir mərdlik vardı.
Öyüdün, nəsihətin
Bizə kömək olardı.
Çırpınardı sinəndə
Xeyirxah, təmiz ürək
Sən yaşadın bir elin
Gərəkli övladıtək!

- misraları ilə bağlanan “Ürəklərdə yaşayan müəllim” kitabından öyrənmişəm. Həmin kitabda Lənkəranda, eləcə də bölgəmizdə, hətta onun hüdudlarından kənarda belə çoxlarının yaxşı tanıdığı, sevdiyi, ehtiram bəslədiyi nadir ziyalılardan olan Şalı Qurban oğlu Canıyevin ibrətamiz həyat yolundan, yaradıcı, nümunəvi əmək, peşə fəliyyətindən, insanlara münasibətindən, hamıya, hər kəsə örnək olan insani keyfiyyətlərindən həvəslə danışılır, barəsində Lənkəranın tanınmış adamlarının məhəbbət dolu xatirələri, fikirləri təqdim olunur. Həmin kitabda sevimli ustadım, şair-tədqiqatçı, ədəbiyyatşünas alim, Prezidentin fərdi təqaüdçüsü, mərhum Hacı Mirhaşım Talışlının vaxtilə Şalı müəllimə həsr etdiyi “Əziz şairi müəllim” adlı şeirindən bir bənd verməklə kifayətlənmək istəyirəm:

Alicənab müəllim, çox səmimi bir insan
Nəcib təbiətilə qəlbimizdə yaşayan
Həyatı nümunətək hamıya örnək olan
Kövrəlir ürəyimiz səni yada saldıqca,
Əziz Şalı müəllim.

Şalı müəllimi mən də çox yaxşı tanıyırdım. Vaxtilə oxuduğum internat, hazırda gimnaziya adlanan orta məktəbin direktoru kimi haqqında xoş xatirələrim vardır. Şalı müəllim təkcə həmin məktəbdə deyil, Lənkəranın bir çox tanınmış təhsil ocaqlarında, eləcə də şəhər rəhbərliyində yüksək vəzifələrdə işləmiş, hamının hörmətini qazanmışdı. Elə bilirəm ki, bunun, əsas səbəbi Şalı müəllimin vəzifə adamından daha çox xalq adamı kimi özünü sevdirməyi idi. Belələri heç zaman qapıları insanların üzünə bağlamaz, əksinə, özü insanların arasına çıxarlar. Şalı müəllim belə bir şəxsiyyət, nadir ziyalı idi. Dəyərli dostum Şəmsəddin Canıyev məhz belə bir hörmətli, sanballı kişinin yadigarıdır. Bu yerdə haqlı olaraq belə deyirlər: “Ot kökü üstə bitibdir”. Bəli, ot kökü üstündə bitəndə Şəmsəddin Canıyev kimi dəyərli insanlar, xeyirxah adamlar, nadir ziyalılar yetişir. Şəmsəddin müəllimin şeirlərində zahiri parıltı yoxdur, amma ürək var, həkimanəlik var, yaşantı vardır. Nədən yazıbsa bütün varlığı ilə bağlandığı, sevdiyi nəsnədən söz açıbdır. Bu səbəbdən özü ilə yazdıqları arasında tam bir vəhdət, bütövlük vardır. Doğma Separadi barədə qələmə aldığı “Kəndim” adlı şeirində olduğu kimi:

Gəlin kimi yaraşıqlı,
Gündüzləri nur, işıqlı.
Sırğayılı, sarmaşıqlı,
Baba yurdum Separadi!

Şəmsəddin müəllimin yaradıcılığında dini-fəlsəfi mövzular üstünlük təşkil edir.Bu cəhətdən onun “Dənizlə söhbət”(Hüseyniyyə) kitabı maraqlı məzmunu, poetik təqdimatı, ən əsası mükəmməl inam və inancı ilə diqqəti cəlb edir. Belə bir yanaşma, saflıq, düzlük onun publisist yazılarında da aparıcı mövqedədir. Uzun müddət atası mərhum Şalı müəllim kimi rəhbər vəzifələrdə özünü xalq adamı kimi təsdiq edən, hazırda geniş ictimai, ədəbi, publisist fəaliyyətilə ardıcıl məşğul olan Şəmsəddin Canıyev imanlı, əxlaqlı, düz, təmiz adam kimi hər yerdə sevilir, şəxsiyyətinə böyük ehtiram göstərilir.Bütün bunlar səbəbsiz deyildir. Şəmsəddin müəllimin, Şəmsəddnin Xocanın irfani görüşlərinin poetik ifadəsi olan bədii yaradıcılığı mənəvi dünyasından, kökə, zata bağlılığından, bir insan kimi kamilliyindən xəbər verir. Həzrət Əlinin (ə.s) məşhur kəlamında çox gözəl deyilir ki, “hər insan dilinin altındadır”. Həm həkimanə söhbətlərinə, həm də qələmə aldığı bədii-publisistik yazılara diqqət etsək, mənəvi dünyasının aynasından müqəddəslərimizin sevgi ilə yaradılmış poetik portretinin canlandığını görərik.- Cəmiyyətdə tanınmış, el içində hörmət, nüfuz qazanmış şəxsiyyətlərin təbliğinə, təqdirinə həsr etdiyi çoxsaylı şeirləri içimizə, mənəvi dünyamıza saflıq, gözəllik, paklıq gətirir. “Dənizdə söhbət” adlı dini-fəlsəfi poemasında müqəddəslik tariximizdən, Adəm babadan,Həvvadan başlayan poetik söhbət bir çox mətləblərə aydınlıq gətirir:

Dəniz, gəl danışaq Adəm babadan,
Nənəmiz Həvvanın nəfsi şərindən

Əsərdə anlaşıqlı, sadə bir dillə, xronoloji ardıcıllıqla peyğəmbər nəsli, imamlar, onların ibrətamiz həyat hekayələri, Şərin-Yezidin Həzrəti Hüseynə və onun tərəfdarlarına qarşı törətdiyi nəsillərin unutmadığı Kərbəla faciəsi nəzmə çəkilmişdir. Yandırıcı günəşin susuz səhrada insanları, İmam Hüseyn ailəsini dəhşətlə üz-üzə qoyması, çətinliklərə, məhrumiyyətlərə baxmayaraq, Həzrət Hüseynin qəhrəmanlıq nümunəsi göstərərək şəhidlik zirvəsinə ucalması həzin bir təhkiyə ilə dilə gətirilmişdir:

On gün sahilində Fəratın durdu
Kərbəla çölündə xeymələr qurdu
Namərdlər kəsdilər suyun qabağın
Tamam qəsb etdilər çayın qırağın
Günəş səhra ilə insan qovurdu
Susuzluqdan insan tələf olurdu.

Əsəri oxuduqca haqqa, ədalətə, halallığa tapınış, şərə, zülmə qarşı etiraz bütün varlığımıza hakim kəsilir. Şəmsəddin Xocanın Məhəmməd peyğəmbərə, Həzrət Əliyə, Xanım Fatiməyə, İmam Hüseynə, Əbülfəzə və digər islam müqəddəslərinə həsr etdiyi şeirlər, ithaflar onun hansı bulaqdan su içdiyini bütün aydınlığı ilə göstərməkdədir. Bir qəzet məqaləsində bütün bunlar barədə təfərrüatı ilə danışmaq, əlbəttə, çətindir. Yalnız bunu demək istəyirəm ki, həqiqətən bu poetik nümunələrdə sevgi var, inam var, şərə, ədalətsizliyə, zülmə qarşı möhtəşəm direniş var, əxlaqi kamillik daxili bir işıq var, həmişə doğrunun, düzün yanında olmağı bacaran bütöv bir şəxsiyyət var. Bu keyfiyyəti həm sözü, həm də əməlləri ilə təsdiq edən Şəmsəddin müəllimin, əziz dostumun 70 illik yubileyi bu günlərə təsadüf edir. Sözü ilə, əməlləri ilə illərdir yol gedən, köklü-köməcli bir nəslin layiqli nümayəndəsi kimi tanıdığım, el ağsaqqalı, tanınmış ziyalı Şalı müəllim Canıyevin doğma ocağında pərvəriş tapan Şəmsəddin Canıyev haqqında nə qədər xoş sözlər söyləsək, yenə də azdır. Mən şair deyiləm, amma, inanın, insan həyatında elə məqamlar olur ki, onları ifadə etməkdən ötrü qələm azlıq edir, bu zaman sözlə birgə saz da gərəkdir. Mən də yazımın sonunda nadir hallarda ələ aldığım ilham sazımı kökləyərək yaxından tanıdığım, özümə doğma bildiyim Şəmsəddin Canıyevə (Şəmsəddin Xoca) ömrünün 70-ci baharına qədəm qoyması münasibətilə təbrik edir, əziz dostuma ən xoş arzularımı bildirirəm:

Kitabdan kitaba axan işıqsan,
Sözünün canısan Şəmsəddin Xocam.
Böyük Möləvinin məna sirdaşı,
Mərifət kanısan, Şəmsəddin Xocam,
Soyundan nişansan, Şəmsəddin Xocam!

Hər sözün, kəlamın Allahdan gəlir,
Əl Vahid, Əl Əhəd, Fəttahdan gəlir
Əl Əlim düşüncən Rəhmandan gəlir
Hikmət ümmanısan, Şəmsəddin Xocam,

İrfan bulağısan, Şəmsəddin Xocam!
Bir söz ki, ürəyə işıq salmasa,
Könüllər ovudub, yaşın silməsə,
Haqqın salamında sən tək yanmasa,
Mənalar bağısan, Şəmsəddin Xocam,
Cəmşidin camısan, Şəmsəddin Xocam!

Hər zaman sözündə aşiqlik gördüm,
Fikrində, zikrində kamillik gördüm,
Əl-əla bağında gözəllik gördüm
Şaliklik barısan, Şəmsəddin Xocam,
Şəmslərin Yarısan, Şəmsəddin Xocam!

Zatında O Nurdan nişanənmi var?
Mərifət bəhrindən dürdanənmi var?
Sədəf nihanından kaşanənmi var?
Nurun nişanəsi Şəmsəddin Xocam,
Dürrün kaşanəsi Şəmsəddin Xocam!

Yədulla Əkinci, düzü görübdür,
Çeşməndən süzülən sözü görübdür,
Yetmişdən ucalan yüzü görübdür,
Sözünlə düz yaşa, Şəmsəddin Xocam!
Düzünlə yüz yaşa, Şəmsəddin Xocam!

*YƏDULLA AĞAZADƏ,*
*Azərbaycan YB-nin üzvü,*
*filologiya elmləri doktoru,*
*professor.*